# Kadri SİMSON: "Azərbaycan etibarlı tərəfdaş olduğunu nümayiş etdirib"

Biz Rusiyadan təbii qaz idxalını tamamilə dayandırmaq istəyirik. Ukraynada baş verən silahlı toqquşmadan əvvəl Avropa Rusiyadan 135 milyard kubmetr təbii qaz idxal edirdi. Bu gün Rusiyadan təbii qaz idxalı 40 milyard kubmetrə qədər azalıb.



Bu sözləri Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson deyib. Aİ nümayəndəsi nəzərə çatdırıb ki, Avropa Norveç, ABŞ və Azərbaycanın hesabına alternativ mənbələrdən qaz tədarük edir.

"Biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində işlərimizi davam etdiririk", - deyə K. Simson əlavə edib.

* * *

"Mən həmişə Azərbaycana məmnuniyyətlə gəlirəm. Avropa Azərbaycandan təbii qaz almağa davam edəcək". Bu sözləri Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simson energetika naziri Pərviz Şahbazov ilə birlikdə keçirdiyi mətbuat konfransında deyib. O bildirib ki, hazırda Avropa Azərbaycandan 11 milyard kubmetr təbii qaz idxal edir.

"Biz Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq əlaqələrini daha da artırmaq fikrindəyik və 2027-ci ilə qədər Azərbaycandan qaz idxalının həcmini 20 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. Avropa ilə Azərbaycan 2020-ci ildən enerji sahəsində əməkdaşlığa başlayıb. Bu illər ərzində bir çox layihələr həyata keçirilib və Azərbaycan hər zaman etibarlı tərəfdaş olduğunu nümayiş etdirib. Biz "yaşıl enerji" sahəsində də Azərbaycan ilə əməkdaşlığı davam etdirəcəyik", - deyə Kadri Simson vurğulayıb.

* * *

Azərbaycanın böyük həcmdə "yaşıl enerji" istehsal etmək potensialı var. Avropanın 150 Qvt "yaşıl enerji"yə ehtiyacı var. Bu sözləri Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson deyib.

O bildirib ki, Azərbaycanın alternativ enerji mənbələrinin həcmi böyükdür.

"Günəş və külək enerjisinin əldə olunması üçün işlərimiz davam edir. Mən Avropa dövlətlərində fəaliyyət göstərən bir sıra şirkətlərə Azərbaycana sərmayə yatırmasını tövsiyə etmişəm", - deyə K.Simson vurğulayıb.

Komissarın sözlərinə görə, Avropa İttifaqı "yaşıl enerji"yə olan tələbatının bir qismini Azərbaycanda istehsal olunan alternativ enerji hesabına ödəməyi planlaşdırır.

*AZƏRTAC*

Azərbaycan.-024.- 2 mart, № 48.- S.7.